Qərbi Zəngəzurun Ermənistana verilməsi

1920-ci il aprelin 28-də Azərbaycanlıda Sovet hakimiyyəti qurulduğu zaman Zəngəzur qəzasının ərazisinin xeyli hissəsi erməni silahlı dəstələrinin nəzarəti altında idi. Rusiyadan Azərbaycana daxil olan bolşevik ordusunun hissələri Bakını işğal etdikdən sonra Qarabağa və Zəngəzura doğru istiqamət götürmüşdü. Bolşevik qoşunlarının bu istiqamətdə hərəkəti daşnak Ermənistanını ciddi narahat edirdi.

Bolşeviklərin Azərbaycanda hakimiyyəti ələ keçirmələrindən sonra Nəriman Nərimanov Azərbaycan İnqilab Komitəsinin sədri seçilsə də, real hakimiyyət qeyri-azərbaycanlıların əlində idi. N.Nərimanov təkbaşına bu cür qüvvələrə qarşı mübarizə aparmaq və qələbə çalmaq iqtidarında deyildi. Bunu sonralar N.Nərimanovun özü də etiraf etmişdi. O, İ.Stalinə ünvanladığı məktubunda yazmışdı: "Çevriliş baş verməsindən sonra, bu asan hiss olunmağa başladı, həm də A.Mikoyan dedi: "Biz Nərimanovu İnqilab Komitəsinin sədri seçərik və onu elə mühasirəyə alarıq ki, o çox da öz nüfuzundan istifadə edə bilməsin"".

1920-ci il aprelin 30-da Azərbaycan sovet hökuməti Ermənistanın daşnak hökumətinə nota verərək ondan Qarabağ və Zəngəzur ərazilərini erməni silahlı dəstələrindən təmizləməyi, Ermənistan qoşunlarının öz sərhədlərinə çəkilməsini təmin etməyi, millətlərarası qırğını dayandırmağı tələb etmişdi. Əks təqdirdə, Azərbaycan özünü Ermənistanla müharibə vəziyyətində hiss edəcəyi bəyan edilmişdi. Mayın 1-də Rusiyanın Gürcüstandakı səlahiyyətli nümayəndəsi Sergey Kirovun, Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Qafqaz Bürosunun rəhbəri Sergey Orconokidzenin və 11-ci Qırmızı ordunun komandanı Mixail Levandovskinin imzası ilə Ermənistan hökumətinə göndərilən teleqramda tələb edilmişdi ki, Ermənistan hökuməti 24 saat ərzində öz qoşunlarını Azərbaycandan çıxarsın.

Ermənistan hökuməti həmin dövrdə Rusiyanın xalq xarici işlər komissarı Georgi Çiçerinin Türkiyəyə və Azərbaycana qarşı qərəzli mövqeyindən xəbərdar idi. Bu mövqeyin formalaşmasında G.Çiçerinin milliyyətcə erməni olan müavini L.Qaraxan (Lev Mixailoviç Qaraxanyan) mühüm rol oynayırdı. Ermənistan Xarici İşlər Nazirliyindən aprelin 30-da G.Çiçerinə göndərilən teleqramda Qırmızı ordu əsgərlərinin Qarabağ və Zəngəzur istiqamətində irəlilədiyi, bu yolla da Türkiyə ilə birləşməyə çalışdığı qeyd edilirdi. Ermənistanın xarici işlər naziri Hamazasp Ohancanyan mayın 3-də Azərbaycan xalq xarici işlər komissarının müavini Mirzə Davud Hüseynova göndərdiyi teleqramda Qarabağ və Zəngəzuru Ermənistanın bir hissəsi saydığını və Azərbaycan hərbi hissələrinin orada yerləşməsindən narahatlığını ifadə etmişdi. H.Ohancanyan həmin teleqramda bildirirdi ki, guya heç vaxt Zəngəzurda Azərbaycan hakimiyyəti mövcud olmamışdır, həmin ərazi guya Zəngəzur Erməni Milli Şurası tərəfindən idarə olunur və əhali həmin ərazini Ermənistanın ayrılmaz tərkib hissəsi hesab edir.

Ermənistandakı daşnak hökumətinin belə ötkəm davranışının arxasında Rusiyanın bəzi dairələrinin onu dəstəkləməsi dayanırdı. Rusiyanın xalq xarici işlər komissarının müavini L.Qaraxan mayın 15-də

İrəvana və Bakıya teleqram göndərərək, Rusiyanın Ermənistan və sovet Azərbaycanı arasında mübahisəli məsələlərin həllində vasitəçilik rolunu öz üzərinə götürdüyünü bildirmişdi.

Rusiya rəhbərliyi Naxçıvan, Zəngəzur və Qarabağın sovet ordusu tərəfindən tutulacağını əvvəlcə bəyan etsə də, ermənilərin silah gücünə ələ keçirdikləri Azərbaycan ərazilərini azad etmək üçün səy göstərməmişdi.

Azərbaycan İnqilab Komitəsinin 18 may 1920-ci il tarixli dekreti ilə Qarabağ və Zəngəzur qəzalarında fövqəladə komissar vəzifəsi təsis edilmişdi. Sonradan Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Siyasi Bürosunun 1920-ci il 26 avqust tarixli qərarı ilə isə Əliheydər Şirvani (Mustafabəyov) fövqəladə komissar, erməni Armenak Qaragözöv isə onun müavini təyin edilmişdi.

Qarabağa gələn S.Orconokidze yerli əhalinin əhval-ruhiyyəsi ilə tanış olduqdan sonra iyunun 19-da G.Çiçerinə göndərdiyi teleqramda bildirirdi ki, Qarabağ və Zəngəzur özlərini Azərbaycan Sovet Respublikasının tərkib hissəsi hesab edirlər.

Həmin vaxt N.Nərimanovun, Qafqaz Bürosunun üzvü Budu Mdivaninin Azərbaycan K(b)P MK-nın üzvü Anastas Mikoyanın və Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü Avis Nuricanyanın G.Çiçerinə və S.Orconokidzeyə ünvanladıqları teleqramda isə yazılırdı: "Artıq Sovet Azərbaycanının tərkibinə daxil olan, guya mübahisəli sayılan Zəngəzur və Qarabağa gəldikdə isə qətiyyətlə bildiririk ki, bu yerlər mübahisəsizdir və bundan sonra da Azərbaycanın hüdudları daxilində olmalıdırlar".

Lakin hadisələrin inkişafı göstərdi ki, G.Çiçerin Azərbaycan rəhbərliyinin mövqeyi ilə razılaşmamışdır. G.Çiçerin iddia edirdi ki, N.Nərimanov Rusiyanın silahlı qüvvələrinin Qarabağı, Zəngəzuru və Naxçıvanı tutub Azərbaycana hədiyyə etməsini istəyir və buna əsla yol vermək olmaz.

1920-ci ilin may-iyun aylarında daşnak Ermənistanı ilə Sovet Rusiyası arasında Moskvada danışıqlar gedirdi. Ermənistan nümayəndə heyətinə Levon Şant (Seqbosyan), Rusiya nümayəndə heyətinə isə G.Çiçerin və L.Qaraxan rəhbərlik edirdilər. L.Qaraxanın diktəsi ilə hərəkət edən G.Çiçerin V.Leninə bildirmişdi ki, Ermənistan nümayəndə heyəti heç bir vəchlə Qarabağ mahalından savayı Ermənistanın hakimiyyəti altında olan digər yerlərin Rusiyanın tabeçiliyinə könüllü verilməsinə razı deyil.

S.Orconokidze G.Çiçerinə göndərdiyi 19 iyun 1920-ci il tarixli teleqramda yazırdı ki, Qarabağ və Zəngəzurda Sovet hakimiyyəti elan olunmuşdur və yuxarıda göstərilən ərazilərin sakinləri özlərini Azərbaycan Sovet Respublikasının hissəsi sayırlar. Lakin sonradan S.Orconokidzenin mövqeyində ciddi dəyişiklik yaranmışdı.

Azərbaycan ərazisinin bir hissəsinin Ermənistana verilməsində həmin dövrdə Rusiyanın daşnak Ermənistanındakı nümayəndəsi Boris Leqranın da xüsusi rolu olmuşdu.

1920-ci il iyulun 10-da B.Leqranın iştirakı ilə Azərbaycan K(b)P MK Bürosunda "Qarabağdan məruzə" dinlənilmişdi. Məruzədə qeyd edilirdi ki, Zəngəzur Ararat (Ermənistan) qoşunları tərəfindən viran qoyulmuşdur, daşnakların dayağı Türkiyə qaçqınlarıdır. Hansı ki, həmişə ingilis-amerikan kapitalı ilə bəslənmişlər, general Dro öz dəstəsi ilə Qarabağdan Zəngəzura qaçmışdır və erməni kəndliləri Ermənistanın tərkibinə daxil olmaq istəmirlər.

İyulun 14-də S.Orconokidze B.Leqranla birlikdə Bakıdan G.Çiçerinə aşağıdakı məzmunda teleqram göndərmişdilər: "Məsələni Azərbaycanı qismən təmin edə biləcək belə bir qaydada həll etməyi zəruri sayırıq: Qarabağ tamamilə və danışıqsız Azərbaycana birləşdirilir. Zəngəzur mübahisəli ərazi hesab olunur. Qalan vilayətlər Ermənistanda qalır".

İyulun 28-də 11-ci ordunun hissələri Gorus-Şahbuz-Cəhri istiqamətində Naxçıvana daxil olmuş, elə həmin gün orada Sovet hakimiyyətinin qurulduğu elan edilmişdi.

Avqustun 3-də Dronun dəstəsi bolşevik qoşunlarının 32-ci diviziyasına hücum edərək Gorusu ələ keçirmişdi. Avqustun 5-7-də 11-ci ordunun hissələri ciddi hazırlıqdan sonra Dro və Njdehin hərbi qüvvələrini qovaraq Sisyan və Qafanı, avqustun 9-da isə Gorusu azad etmişdilər. Dronun dəstələrinin qalıqları yenidən Dərələyəzə çəkilmişdi. Njdehin qoşunu isə Meğri rayonu ərazisində özünə mövqe tutmuşdu.

Avqustun 10-da İrəvanda sovet Rusiyası ilə daşnak Ermənistanı arasında sülh sazişi imzalanır. Sazişin 3-cü bəndində qeyd edilirdi ki, sovet qoşunlarının mübahisəli əraziləri tutması həmin ərazilərin hüquqi cəhətdən Azərbaycana və yaxud Ermənistana aid olması məsələsini həll etmir. Yəni bu sazişlə sovet Rusiyası Zəngəzurun sovet Azərbaycanının tərkib hissəsi olmasını qəbul etmədiyini göstərirdi və bu addımı ilə Antanta ilə əməkdaşlıq edən Ermənistanı öz tərəfinə çəkmək istəyirdi.

Qərb dövlətlərindən və Sovet Rusiyasına qarşı vuruşan çar ordusunun komandanı general Vrangeldən xeyli miqdarda silah-sursat aldıqdan sonra Ermənistan silahlı qüvvələri general Dronun komandanlığında yenidən Dərələyəzdən Zəngəzura hücum edib, Gorusu bir daha ələ keçirmişdi. 1920-ci il sentyabrın əvvəllərində Njdeh özünü Zəngəzurdakı bütün erməni silahlı dəstələrinin baş komandanı elan etmişdi.

Azərbaycan K(b)P MK Siyasi Bürosunun noyabrın 4-də İ.Stalin və S.Orconokidzenin iştirakı ilə keçirilən iclasında Rusiya ilə Ermənistan arasında imzalanması nəzərdə tutulan müqavilədə Naxçıvanın və Zəngəzurun Ermənistana verilməsi məsələsinə kəskin etiraz bildirilmişdi.

1920-ci il noyabrın ikinci yarısında Zəngəzurda siyasi-hərbi vəziyyət yenidən ermənilərin xeyrinə dəyişmişdi. Rusiya əsas diqqəti Ermənistanda sovet hakimiyyətinin qurulmasına yönəltmişdi. Noyabrın 29-da Ermənistanda daşnak hökuməti devrilmiş və sovet hakimiyyəti qurulmuşdu. Noyabrın 30-da Azərbaycan K(b)P MK Siyasi və Təşkilat bürolarının birgə iclasında "Ermənistan İnqilab Komitəsinin Ermənistanda Sovet hakimiyyətinin elan olunması haqqında" teleqramı müzakirə edilmiş və Azərbaycanın mənafeyinin ziddinə qərar qəbul edilmişdi. Həmin qərarda qeyd edilirdi ki, Zəngəzur və Naxçıvan Sovet Ermənistanına keçir, Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verilir.

Dekabrın 1-də Bakı Sovetinin Ermənistanda Sovet hakimiyyətinin qurulması münasibətilə keçirilən təntənəli iclasında N.Nərimanov bəyanatla çıxış etmişdi. Həmin bəyanatda yazılmışdı ki, «Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanının bölünməz ərazisidir» və «Dağlıq Qarabağın əməkçi kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir». Zəngəzurda hərbi əməliyyatlar dayandırılır və Sovet Azərbaycanının qoşunu oradan çıxarılır.

Bəyanatın mətni Bakıda rus dilində nəşr edilən «Kommunist» qəzetinin 2 dekabr 1920-ci il tarixli nömrəsində öz əksini tapmışdı. Bu bəyanat İrəvanda ermənicə nəşr edilən «Kommunist» qəzetində 7 dekabr 1920-ci ildə saxtalaşdırılaraq dərc edilmişdi. Bəyanatın Dağlıq Qarabağa aid olan hissəsində bu bölgənin «Ermənistan Sovet Sosialist Respublikasının tərkib hissəsi kimi tanınması» qeyd edilmişdi.

S.Orconogidze N.Nərimanovun bəyanatını saxtalaşdıraraq dekabrın 2-də Bakıdan Leninə və Stalinə göndərdiyi teleqramda bildirirdi: "Azərbaycan artıq dünən Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini bəyan etmişdir".

N.Nərimanov bəyanatda elan edilən faktların ermənilər tərəfindən saxtalaşdırılmasına etiraz etmişdi. Lakin Moskva öz işində idi. Siyasi qərarlar Moskvadakı ermənipərəst rəhbərlər tərəfindən qəbul edilir, Azərbaycan xalqının iradəsi saya alınmadan həyata keçirilirdi.

1920-ci il dekabrın 2-də İrəvanda Sovet Rusiyası ilə Sovet Ermənistanı arasında hərbi-siyasi saziş imzalanmışdı. Sazişi Rusiya tərəfindən Ermənistandakı diplomatik nümayəndə Boris Leqran, Ermənistan tərəfindən isə dərhal bolşeviklərin tərəfinə keçən general Dro və A.Terteryan imzalamışdılar. Ermənistanın sovetləşməsinin müqabilində Rusiya, bütün keçmiş İrəvan quberniyasının, Zəngəzur qəzasının, Qazax qəzasının dağlıq hissəsinin Sovet Ermənistanına daxil olmasını mübahisəsiz tanıdığını bəyan etmişdi.

1920-ci il dekabrın 25-də öz dəstəsi ilə Tatev monastırında qərar tutan polkovnik Njdeh Zəngəzurun öz nəzarəti altında saxladığı hissəsində "Sünik Muxtar Respublikası" yaratdığını bəyan etmişdi. 1921-ci il yanvarın 21-də isə daşnak Ermənistanı dövründə bir həftə baş nazir olmuş Simon Vrasyanın başçılığı ilə Zəngzurda "Dağlıq Ermənistan Respublikası" yaradılmışdı. Həmin oyuncaq respublikanın silahlı qüvvələrinə yenə də polkovnik Njdeh başçılıq edirdi.

Sovet Ermənistanı hökuməti və 11-ci ordunun komandanlığı Yuxarı Zəngəzurun Ermənistana birləşdirilməsini başa çatdırmaq üçün Zəngəzurdakı oyuncaq "Dağlıq Ermənistan Respublikası" ilə danışıqlar aparırdı. Sovet Ermənistanı Zəngəzurda Njedehin nəzarət altında saxladığı ərazini İrəvanla Qarabağ arasında baryer hesab edirdi və həmin baryeri aradan qaldırmaq məqsədilə Zəngəzur üzərinə hücuma hazırlaşırdı. 21 aprel 1921-ci ildə Tatev monastırında keçirilən Zəngəzur ermənilərinin 2-ci qurultayında Njdeh "Dağlıq Ermənistan Respublikası"nın baş naziri, hərbi naziri və xarici işlər naziri seçilmişdi. Bir sözlə, cəllad Njdeh Yuxarı Zəngəzurda küll-ixtiyar sahibi olmuşdu. Mayın 12-də Qalancıq kəndində Sovet Ermənistanı ilə "Dağlıq Ermənistan Respublikası" arasında Yuxarı Zəngəzurun Sovet Ermənistanına birləşdirilməsi məqsədilə danışıqlar aparılmışdı. Njdeh Zəngəzurun Sovet Ermənistanına birləşdirilməsinə o şərtlə razılıq vermişdi ki, Ermənistan hökuməti Dağlıq Qarabağın Ermənistana məxsus olmasını rəsmən təsbit etsin. Rəsmi İrəvan Njdehin bu şərtinə tezliklə əməl etmişdi.

Sovet qoşunlarının 11-ci ordusunun komandanlığı 1921-ci il mayın 25-dən etibarən yeni hərbi əməliyyatlar hazırladığı zaman Njdehin silahlı dəstələri Gorusdan çəkilərək, Bazarçay və Qafan rayonlarında qərar tutmuşdu. Bolşevik qoşunları iki istiqamətdən - həm Qarabağ, həm də İrəvan istiqamətindən Zəngəzura hücuma keçmişdi. Əlahiddə Qafqaz Ordusu adlandırılan 11-ci ordunun İrəvan qruplaşması üç tərəfdən - Vedidən Keşişkəndə (Dərələyəz), Naxçıvandan Əngələvidə (Sisyan) və

Ordubaddan Meğriyə hücuma keçmişdi. Qəhrəman Abbasqulu bəy Şadlinskinin başçılıq etdiyi Qırmızı tabor da Zəngəzura hücum edən bolşevik qoşununun tərkibində Njdehə qarşı vuruşurdu. Həmin qruplaşma iyunun 26-da Dərələyəzi, 28-də Biçənək aşırımını, 30-da isə bütün Sisyan rayonunu daşnak qoşunlarından azad etmişdi. İyulun 2-də bolşeviklərin Şuşa tərəfdən irəliləyən Qarabağ-Zəngəzur qruplaşması isə İrəvan qruplaşması ilə birlikdə Gorusa daxil olmuşdu. Njdehin dəstəsi iyulun 4-də Tatev monastırından, iyulun 7-də isə Qafan mis mədənləri rayonundan çəkilmişdi. İyulun 9-da Njdeh öz dəstəsi ilə birlikdə Meğridən Arazı adlayaraq İrana qaçmışdı.

Ermənistan Xalq Komissarları Soveti 20 iyul 1921-ci ildə Ermənistanın 8 qəza 33 nahiyədən ibarət inzibati-ərazi bölgüsünü təsdiq etdi. Həmin inzibatı bölgüdə Zəngəzur qəzası yox idi. Avqustun 31-də isə yeni 9-cu qəza – mərkəzi Gorus şəhəri olmaqla Zəngəzur qəzası yaradıldı. Azərbaycan isə öz növbəsində Zəngəzurun qərb hissəsini (Gorus, Sisyan, Qafan rayonlarını və Meğri rayonunun bir hissəsini) öz inzibati-ərazi bölgüsündən çıxartdı. Bununla da Zəngəzur iki hissəyə bölündü və onun qərb hissəsi Ermənistana birləşdirildi.